# Ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını müdafiə edən mühüm platforma

*Azərbaycan son dövrlərdə dünya miqyasında qlobal konfransların keçirildiyi, bəşəri problemlərin müzakirə olunduğu mühüm dövlət kimi tanınır. Günü-gündən dünyada nüfuzu artan və regionda aparıcı aktora çevrilən ölkəmiz bir sıra beynəlxalq qurumlarda yalnız üzv dövlət kimi təmsil olunmur, eyni zamanda qərarların qəbulunda və icrasında yaxından iştirak edir, həmçinin rəhbərlik etdiyi təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün mühüm addımlar atır. Tərəfdaşlıq etdiyi beynəlxalq qurumlardan sadəcə Avropa Şurasının Parlament Assambleyası (AŞPA) dövlətimizin gözləntilərini doğrultmadı. Təşkilat 30 il ərzində Azərbaycan ərazilərinin işğal faktına göz yumub, Ermənistana özəl münasibət sərgilədi. Qurum Azərbaycanla münasibətlərdə yalnız ermənilərlə bağlı məsələlər narahat edir, yalnız bu mövzunu prioritet sayır.*

Hətta Azərbaycan ərazilərini işğaldan azad edəndən sonra digər Avropa institutları kimi, AŞ və AŞPA da Ermənistanın işğal müddətində törətdiyi dağıntıları, kəndlərin, şəhərlərin yer üzündən silinməsini, maddi-mədəni, dini irsin yox edilməsini öz gözləri ilə görmək üçün heç bir təşəbbüs göstərmədi, rəsmi Bakının çağırışlarına qarşılıq vermədi. AŞPA keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin ədalətli həllinə heç bir dəstək vermədi. Ermənistanda insan haqlarının kobud şəkildə pozulmasına, siyasətçilərin güllələnməsinə baxmayaraq, Avropa Şurası bütün bunlara göz yumdu. Lakin Azərbaycan Avropa Şurasının möhkəmlənməsinə öz töhfəsini verdi, onlar isə ölkəmizlə bağlı heç bir müsbət iş görmədilər, əksinə, dövlətimizə qarşı qarayaxma kampaniyası aparıldı, iftiralar atıldı. Bütün bunlar əfsuslar olsun ki, Avropa Şurasının rəhbərliyi səviyyəsində dəstəkləndi və hətta Avropa Şurası rəhbərləri bu çirkin kampaniyaya başçılıq da etdilər. Bu qərəzli yanaşma Avropa Şurasının heç bir prinsipinə, məqsədinə uyğun deyil. Ona görə də Azərbaycan Avropa Şurasını tərk etməklə heç nə itirmədi, lakin Avropa Şurası bununla "üzərində oturduğu budağı" kəsdi.

Azərbaycan 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü təmin etdikdən sonra AŞPA dövlətimizə qarşı daha qərəzli və ədalətsiz davranışlar sərgilədi. Ötən ilin yanvarında əsassız və cəfəng "insan hüquqlarının pozulması" faktına əsaslanaraq Azərbaycan nümayəndə heyətini səsvermə hüququndan məhrum etdi.

Qeyd edək ki, AŞ-a qoşulandan sonra Azərbaycanın Avropa İttifaqı ilə bağlı gözləntiləri kəskin şəkildə dəyişdi. Bu dəyişiklik Ağ Evin yeni sahibi Prezident Donald Trampın hakimiyyətə gəlməsi ilə tamamlandı. Azərbaycan güclü iqtisadiyyata, sabit siyasi sistemə, vahid milli ideya ətrafında birləşən cəmiyyətə malikdir. Dövlətimiz bu gün nəinki region, hətta uzaq dünya ölkələri ilə də yüksək səviyyədə əməkdaşlıq edir. Ölkəmizin daxili işlərinə müdaxilə edilmədiyi və xalqımızın maraqlarına zidd olan dəyərlər aşılanmadığı halda Azərbaycan dostluq və tərəfdaşlıq münasibətlərinə də daim sadiqdir.






Aprelin 9-da ADA Universitetində təşkil olunan "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum da mühüm əhəmiyyətə malik platforma oldu. Forumda siyasətçilər, strateqlər, diplomatlar və akademiklər bir araya gələrək dünyadakı dəyişiklikləri müzakirə etdilər. Prezident İlham Əliyevin forumda etdiyi çıxış yalnız bölgə ölkələrinə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanan ciddi mesajlar idi. Dövlət başçısının səsləndirdiyi fikirlər Ermənistanla normallaşma prosesinin konturlarını, mümkün sülh sazişinin şərtlərini və regionda gələcək əməkdaşlıq imkanlarını aydın şəkildə ortaya qoydu. Bu çıxış həm də Azərbaycanın geosiyasi baxışının, regional transformasiya layihələrinin və təhlükəsizlik arxitekturasının konturlarını müəyyənləşdirdi.

Forumda müzakirə olunan önəmli mövzulardan biri də Qoşulmama Hərəkatı ilə bağlı oldu. Prezident İlham Əliyev nəzərə çatdırdı ki, Hərəkatda müəyyən zəifləmənin olduğu zaman Azərbaycan ona yeni dinamika gətirdi, parlament platformasını yaratdı. Ölkə rəhbəri bildirdi: "Biz Qoşulmama Hərəkatına dörd il sədrlik etdik və bütün üzv dövlətlərə minnətdarıq. Bir yaxşı hekayətə imza atdıq... O, uğurla fəaliyyət göstərir. Həmçinin gənclər platformasını təsis etdik. Bütün bunlar Azərbaycanın yaratdığı hekayətdən xəbər verir. Biz eyni zamanda Qoşulmama Hərəkatının təsisat baxımından inkişafına diqqət yetiririk və onun çox nüfuzlu beynəlxalq təşkilata çevrilməsinə çalışırıq".

Qoşulmama Hərəkatının (QH) əsası müstəmləkə sisteminin süqutu, Afrika, Asiya, Latın Amerikası və dünyanın digər xalqlarının müstəqillik mübarizəsi və soyuq müharibənin getdiyi zamanda qoyulmuşdur. Hərəkat dünyada sülhün və təhlükəsizliyin qorunmasında mühüm rol oynamışdır. 1955-ci ildə Bandunqda keçirilmiş Asiya-Afrika Konfransı Qoşulmama Hərəkatının yaradılmasına təkan vermişdi. Konfransda elan olunan dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək, digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək, qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək də daxil olmaqla ümumilikdə 10 prinsipdən ibarət tarixi "Bandunq prinsipləri" QH-nin ideoloji əsasını təşkil edir. 1961-ci ildə Belqradda keçirilən birinci Zirvə görüşündə Qərb ittifaqı ilə Şərq blokundan əlavə üçüncü blok kimi Qoşulmama Hərəkatı yaradıldı. Hərəkatın qurucuları Yuqoslaviyadan olan sosialist Josip Broz Tito, Hindistandan Cəvahiral Nehru, İndoneziyadan Sukarno, Misirdən Camal Abdel Nasir və Qanadan Kvame Nkrumahdır. Soyuq müharibə bitəndən sonra hərəkat özünü yeniləməyə və məqsədlərini hazırkı dünya nizamına uyğunlaşdırmağa başladı. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından (BMT) sonra dünyada ikinci ən böyük beynəlxalq təsisatdır. Müxtəlif qlobal məsələlərlə bağlı hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. QH-nin əsas məqsədi beynəlxalq hüququn norma və prinsipləri əsasında dünyada sülhün, təhlükəsizliyin qorunmasına, tərəqqiyə töhfə, qlobal problemlərin həlli və müasir dövrün çağırışlarına cavab verməkdir.

Təşkilatın fəaliyyətinin genişlənməsində Azərbaycanın müstəsna xidmətləri var. Məhz dövlətimizin təşkilata sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzu daha da yüksəlmiş, beynəlxalq proseslərə təsir imkanları artmış, qarşıya qoyduğu vəzifələr aydınlaşmışdır. 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə Toplantısında Hərəkatın üzv dövlətləri 2011-ci ildən Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olan Azərbaycanın təşkilatın növbəti sədri seçilməsinə razılıq vermişlər. Azərbaycan təşkilata çətin bir dövrdə - COVID-19 pandemiyasının dünyanı ağuşuna aldığı, bütün sahələrdə tənəzzül yaşandığı bir vaxtda (2019-2023) sədrlik etməyə başlayıb. Buna baxmayaraq, uğurlu sədrliyi ilə Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verib. Ona görə də Azərbaycanın sədrliyi təşkilatın təmsilçisi olan ölkələrin rəyi ilə daha bir il - 2023-cü ilin sonunadək uzadılıb. Azərbaycan beynəlxalq arenada COVID-19-la mübarizədə fəal ölkələrdən biri olub və dövlətimiz Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsü ilə çıxış edib.

Ölkəmiz sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafına xüsusi önəm vermişdir. Azərbaycanın təşəbbüsü ilə 2021-ci ildə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi və 2022-ci ildə Qoşulmama Hərəkatı Gənclər Təşkilatı yaradılmış, 2023-cü ildə Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması ideyası üzv dövlətlər tərəfindən dəstəklənmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq". Hərəkata sədrliyi dövründə Azərbaycan "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə müdafiə etmişdir.

Qoşulmama Hərəkatı ilə Azərbaycan arasında yaranmış etibarlı tərəfdaşlığın əsas təzahürlərindən biri İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasında Fransa başda olmaqla, ATƏT-in Minsk qrupunun üzvləri tərəfindən irəli sürülmüş və Azərbaycanın ərazi bütövlüyünün təsbit edildiyi dörd qətnamənin yer almadığı qərəzli bəyanatın qəbul edilməsinin qarşısının alınması olub.

Qoşulmama Hərəkatının nüfuzu getdikcə daha da artır. Təsisatda Azərbaycanın təşəbbüsü ilə yeni şəbəkələr yaranıb ki, bunlar da həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində atılan mühüm addımlardır. Qoşulmama Hərəkatı ölkələrin yalnız maraqlarını müdafiə etmək və bir-birini dəstəkləməklə məhdudlaşmır, eyni zamanda beynəlxalq arenada daha fəal rol oynamaq üçün mühüm platformadır.

**Bayram SALMANOV,**
**"Respublika".**